Dövlət Sərhəd Xidməti (DSX) və Rusiya Federasiyası FTX-nin Sərhəd Xidmətilə birgə axtarış tədbirləri keçirib

DSX-nin Mətbuat Mərkəzindən verilən məlumata görə, DSX və Rusiya Federasiyası FTX-nin Sərhəd Xidməti arasında dövlət sərhədinin etibarlı mühafizəsinə dair razılaşmaya əsasən qarşılıqlı məlumat mübadiləsi nəticəsində keçirilmiş birgə sərhəd axtarışı zamanı 30 iyul 2013-cü il tarixdə Qusar rayon Yuxarı Zeyxuroba kənd ərazisindəki sərhəd zastavasının xidməti sahəsində Rusiya Federasiyası istiqamətindən dövlət sərhədini pozmuş 1967-ci il təvəllüdlü Əhmədov Ramiz Tahir oğlu Azərbaycan sərhədçiləri tərəfindən saxlanılıb.

Hazırda fakt üzrə DSX tərəfindən əməliyyat-istintaq tədbirləri davam etdirilir.